DOI:10.30546/gdu.4.2024

UOT:94.

KİTABXANALARDA İNFORMASİYA TƏHLÜKƏSİZLİYİNİN NƏZƏRİ MƏSƏLƏLƏRİ

Məmmədova Sevda İsrafil qızı
Bakı Dövlət Universiteti
baku_2007@mail.ru
https://orcid.org/0000-0001-9469-5744,

Xülasə: *Məqalədə informasiya təhlükəsizliyinin yaranması problemi araşdırılır, informasiya təhlükəsizliyi anlayışı geniş izah edilir. Eyni zamanda informasiyanın mühafizəsi tədbirləri geniş şərh olunur. Tarixən toplanmış informasiya ehtiyatlarının hamı üçün əlyetərliyinin təmini kitabxanaların başlıca vəzifələrindəndir. Hazırda informasiya cəmiyyəti dövründə bu funksiyanı həyata keçirən elektron kitabxanaların elektron informasiya resurslarının təhlükəsizliyini təmin etmədən tələbatçılara etibarlı informasiya xidməti göstərməsi qeyri-mümkündür.*

Açar sözlər: informasiya təhülkəsizliyi, informasiya resursları, informasiya təhdidləri, informasiyanın mühafizəsi tədbirləri

Ключевые слова: информационная безопасность, информационные угрозы, информационные ресурсы

Keywords: information security, protection, malware, library activities, information resources

Giriş. Artıq XXI əsrdə, informasiya texnologiyalarının cəmiyyətin bütün sahələrinə nüfuz etdiyi bir dövrdə, cəmiyyətin və dövlətin həyatında informasiyanın, informasiya resurslarının və texnologiyalarının rolunun artması informasiya təhlükəsizliyi məsələlərini ön plana çıxarır. Onu da xüsusilə qeyd etmək lazımdır ki bu proseslərin nəticəsində müasir cəmiyyət tədricən öz informasiya infrastrukturunun vəziyyətindən asılı olur. Odur ki, milli təhlükəsizlik məsələsi, daha çox informasiya təhlükəsizliyinin nə dərəcədə təmin olunması ilə müasir dövrdə daha çox aktuallıq kəsb edən məsələlərdən birinə çevrilir.

Əsas hissə. İnformasiyanın təhlükəsizliyinin təmin olunması probleminin vacibliyini və aktuallığını şərtləndirən əsas səbəblərdən bəzilərini xüsusilə vurğulamaq lazımdır:

-şəbəkə texnologiyalarının geniş yayılması və lokal şəbəkələrin qlobal şəbəkələr halında birləşməsi; -informasiya təhlükəsizliyinin pozulmasına praktik olaraq mane olmayan qlobal Internet şəbəkəsinin inkişafı; -minimal təhlükəsizlik tələblərinə belə cavab verməyən proqram vasitələrinin geniş yayılması.

"İnformasiya təhlükəsizliyi" (İT) söz birləşməsi olub müxtəlif elmi mətnlərdə müxtəlif mənalarda işlədilir. İnformasiya təhlükəsizliyi dedikdə, biz informasiya münasibətlərində olan subyektlərə, o cümlədən informasiya sahibləri və ondan istifadə edən və onu dəstəkləyən istifadəçilərə informasiyanın və infrasturkturun təbii və ya süni xarakterli, təsadüfi və ya bilərəkdən edilən təsirlərdən mühafizəsini nəzərdə tuturuq. İnformasiya təhlükəsizliyi təkcə informasiyaya sanksiyalaşdırılmamış daxil olmadan mühafizə deyil, daha geniş məna daşıyır. İnformasiya münasibətləri subyekti nəinki icazə verilməmiş daxil olmalardan, həmçinin işdə müəyyən fasilə yarada biləcək sistemin nasazlığından da zərər çəkə bilər. Bundan başqa, bir sıra qeyri-məxfi təşkilatlar üçün vaciblik nöqteyi nəzərindən informasiyaya icazə verilməmiş daxil olmadan mühafizə heç də birinci yerdə durmur.

İnformasiya təhlükəsizliyi dedikdə, informasiya və ona xidmət edən infrastrukturun sahibi və ya istifadəçilərinə ziyan vurmağa səbəb olan təbii və ya süni xarakterli, təsadüfi və ya qəsdli təsirlərdən informasiya və ona xidmət edən infrastrukturun mühafizə dərəcəsi nəzərdə tutulur. Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi adlı konsepsiyasında

DOI:10.30546/gdu.4.2024

da “informasiya təhlükəsizliyi” geniş mənada şərh edilir. Belə ki, Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi konsepsiyasında informasiya resurslarına icazə verilməmiş giriş, informasiya və telekommunikasiya sistemlərinin təhlükəsizliyinin təmini informasiya mühitində Azərbaycan Respublikasının vacib milli maraqları kimi qeyd edilmişdir[6].

İnformasiya təhlükəsizliyi milli, sənaye, korporativ və ya fərdi hesab edilməsindən asılı olmayaraq inteqral təhlükəsizliyin ən vacib aspektlərindən biridir. İnformasiya təhlükəsizliyi problemlərini nəzərdən keçirərkən aşağıdakı təhlükəsizlik məsələlərini nəzərə almaq lazımdır: a) şəxsiyyət b) məlumat; c) bütövlükdə bütün sistem. Elektron kitabxanaların informasiya təhlükəsizliyinin təmin edilməsində ilk addım həm real (hazırda aktiv), həm də potensial (gələcəkdə yarana biləcək) təhdidlərin təhlili olmalıdır.

İnformasiya təhlükəsizliyi çoxşaxəlidir, demək olar ki çoxölçülü fəaliyyət sahəsi olmaqla o, təkcə məlumatın qorunması ilə məhdudlaşmır, prinsipcə daha geniş bir anlayışdır. Burada yalnız sistemli, hərtərəfli yanaşma daha optimal uğurlu nəticələr verə bilər. Burada həm informasiya münasibətləri subyektlərinin maraqlarını, həm də bu maraqların müdafiəsi tədbirlərini nəzərə almaq lazımdır. Subyektlərin maraq dairəsinə uyğun informasiya resurslarını aşağıdakı əsas kateqoriyalara bölmək olar: əlçatanlıq (lazım olan məlumat xidmətini istənilən müddətdə əldə etmək imkanı);

- dürüstlük (informasiyanın aktuallığı və etibarlılığı, süni qəsdlərdən və icazəsiz dəyişdirilmədən qorunması);
- məxfilik (icazəsiz istifadənin qarşısının alınması).

İnformasiya münasibətləri subyektlərinin maraqlarını qorumaq məqsədilə həyata keçirilən tədbirləri aşağıdakı səviyyələrdə qruplaşdırmaq mümkündür:

- qanunvericilik (qanunlar, qaydalar, standartlar və s.) tədbirləri;
- inzibati (görülən ümumi tədbirlər, müəssisənin idarə edilməsi) tədbirlər;
- prosessual (insanlarla bağlı xüsusi təhlükəsizlik tədbirləri) tədbirlər;
- proqram təminatı və texniki (xüsusi texniki tədbirlər) təminat tədbirləri.

Qanunvericilk tədbirləri hər bir ölkənin qəbul etdiyi qanun və qanunvericilk aktlarında, sərəncamlarında əks olunur və inzibati tədbirlər yolu ilə həyata keçirilir. Qanunvericilik tədbirlərini iki qrupa bölmək olar:

1.Cəmiyyətdə informasiya təhlükəsizliyini pozanlara və pozuntulara mənfi (o cümlədən cəzalandırıcı) münasibət yaratmağa və saxlamağa yönəlmiş tədbirlər;

2. İnformasiya təhlükəsizliyi sahəsində cəmiyyətin maarifləndirilməsinin artırılmasına töhfə verən tədbirləri istiqamətləndirmək və əlaqələndirmək, informasiya təhlükəsizliyi vasitələrinin hazırlanması və yayılmasına kömək etmək.

İnzibati tədbirlər isə hüquq-mühafizə, məhkəmə orqanları tərəfindən həyata keçirilir. İnzibati səviyyə daxili informasiya təhlükəsizliyi təcrübəsində kor nöqtədir. Təşkilatların təhlükəsizlik siyasətinin olmasını tələb edən qanunlar yoxdur. İnformasiya təhlükəsizliyinə nəzarət edən şöbələrin heç biri bu sahədə standart inkişaf proqramı irəli sürmür. Heç bir təhsil müəssisəsi təhlükəsizlik siyasətinin hazırlanması üzrə mütəxəssis hazırlamır. Az sayda menecer təhlükəsizlik siyasətinin nə olduğunu bilir və hətta daha az təşkilat belə siyasətə malikdir. Təşkilati tədbirlərə xüsusilə toxunaraq qeyd etmək lazımdır ki, bu tədbir müəssisənin, yəni kitabxananın təhlükəsizlik siyasəti əsasında həyata keçirilir. Prosessual səviyyəyə insanlar tərəfindən həyata keçirilən təhlükəsizlik tədbirləri daxildir. Yerli təşkilatlar prosessual (təşkilati) tədbirlərin hazırlanması və həyata keçirilməsində zəngin təcrübə toplayıblar, lakin problem ondadır ki, onların təcrübəsi kompüterlərin təkamülündən əvvəlki dövrü əhatə edir ki buna görə də ciddi şəkildə bu məsələyə yenidən baxılmalıdır.

DOI:10.30546/gdu.4.2024

İnformasiya təhlükəsizliyinin təmin edilməsinə yönəlmiş aşağıdakı prosessual tədbirlər qruplarını ayırmaq olar: - kadrların idarə edilməsi;- fiziki müdafiə;- iş qabiliyyətinin qorunması;- təhlükəsizlik pozuntularına reaksiya; - bərpa işlərinin planlaşdırılması.

Daxili və xarici təhdidlərə qarşı yönəlmiş proqram-texniki təminat tədbirlərinə informasiya ehtiyatlarından və kitabxananın kompüter sistemindən qeyri-leqal istifadənin qarşısının alınması və informasiyanın elektron arxivinin yaradılması və davamlı olaraq yeniləşdirilməsi daxildir [1,179].

Ümumiyyətlə informasiya təhlükəsizliyi siyasətinin işlənməsi müəssisənin informasiya təhlükəsizliyi sisteminin təşkil edilməsində ilk tələblərdən biridir. İnformasiya təhlükəsizliyi siyasətinin məqsədi rəhbərliyin informasiya təhlükəsizliyi üzrə idarəçiliyini və dəstəyini müvafiq qanunlara və normativlərə uyğun olaraq təmin etməkdir. İnformasiya təhlükəsizliyi siyasəti müəyyən resursların (məsələn, əhəmiyyətli kompüter sistemlərinin və verilənlərin) mühafizə məqsədlərini, cavabdehliyini və ümumi tələbləri özündə ehtiva edir. Sənədləşdirilmiş informasiya təhlükəsizliyi siyasəti rəhbərliyin münasibətini bəyan etməli və informasiya təhlükəsizliyinin idarə edilməsinə yanaşmanı, informasiya təhlükəsizliyi anlayışını, onun əsas məqsədlərini və təsir dairəsini müəyyən etməli, qiymətləndirmənin strukturu və risklərin idarə edilməsi daxil olmaqla nəzarətin məqsədlərini və mexanizmlərini müəyyən etmək üçün əsas müddəaları nəzərdə tutmalıdır. İnformasiya təhlükəsizliyi siyasəti üzrə sənəd rəhbərlik tərəfindən təsdiq olunmalı, nəşr edilməli və bütün işçilərə və müvafiq xarici tərəflərə çatdırılmalıdır.

Təhlükəsizlik mexanizmləri həmcins, paylanmış mühitdə işləməlidir. Bu o deməkdir ki, proqram və aparat təminatı ümumi qəbul edilmiş standartlara əsaslanmalı və fərdi xidmətlərin xüsusiyyətlərini nəzərə alınmaqla şəbəkə təhdidlərlərinə qarşı davamlı olmalıdır. Fiziki şəxslərin informasiya təhlükəsizliyinin təmin edilməsi kitabxananın fəaliyyəti vətəndaşların, şəxsiyyətin inkişafı, formalaşması və davranışı, kütləvi informasiya azadlığı, mədəni-mənəvi irsdən istifadə ilə bağlı konstitusiya hüquq və azadlıqlarının qorunmasına, hüquqlara konstitusiya məhdudiyyətlərinin həyata keçirilməsinə yönəldilmişdir [6]

Oxucu üçün təhlükə həm də zəruri informasiyanın olmaması və ya onun etibarsızlığı, təhrif olunması və xaotik mövcudluğudur (İnternet informasiya resursları). Təhdid sosial, irqi, milli və ya dini nifrət və düşmənçiliyi qızışdıran, irqi, milli, dini və ya linqvistik üstünlükləri elan edən, qəddarlıq və zorakılıq kultunu təbliğ edən şübhəli xarakterli məlumatlar da hesab oluna bilər [5, s.231] İnformasiyanın texnoloji emalının pozulması da informasiya təhlükəsizliyi probleminə çevrilə bilər. Daxil olan məlumatların gec işlənməsi və təhlili; informasiyanın, xüsusən də kütləvi informasiyanın işlənməsi zamanı qaçılmaz olan səhvlər; sahələrin səhv doldurulması avtomatlaşdırılmış kitabxana informasiya axtarış sistemlərində informasiyanın axtarışında və əldə edilməsində ləngimələrə, bəzən isə əngəllərə səbəb olur. Bu, kitabxanalarda bir çox ümumi, geniş yayılmış hallara gətirib çıxarır. Belə ki nəticədə oxucu üçün son dərəcə zəruri ola biləcək bir sənəd onilliklər ərzində tələb olunmur və sonda yalnız oxucunun onun mövcudluğundan şübhələnmədiyi üçün lazımsız informasiya kimi məhv olur və ya itir. Bu vəziyyət insanın əsas informasiya hüququnu pozur. Kitabxanalar informasiya ehtiyatlarına, elm və texnikanın nailiyyətlərinə, ədəbiyyat, mədəniyyət və incəsənət əsərlərinə unikal çıxış imkanı yaratdığından, öz oxucularına bu nəşrlərlə tanış olmaq imkanı verir, dövri mətbuatda, filmlərdə, videolarda, musiqi əsərlərində və elektron sənədlərdə həm informasiya ehtiyatlarının özünün, həm də onlarda olan məlumatların informasiya təhlükəsizliyinə diqqət yetirmək lazımdır. İnformasiya ehtiyatlarının, informasiyaların və kitabxanaların özlərinin informasiya təhlükəsizliyinə yönəlmiş təhdidlərə aşağıdakılar daxildir:

DOI:10.30546/gdu.4.2024

- təbii fəlakətlər; yanğınlar; istehsalat qəzaları; terror aktları; oğurluq; informasiyanın ələ keçirilməsi; kompüter cinayətləri; informasiya resursları yaratmaq üçün aşağı keyfiyyətli məhsullardan istifadə.

Son dövrlərdə Azərbaycanın ictimai-siyasi və sosial-iqtisadi sahələrində baş verən proseslər ölkənin beynəlxalq telekommunikasiya şəbəkələrinə inteqrasiyasına səbəb olmuşdur. Nəhəng elmi-texniki, ictimai-siyasi informasiya bazalarına giriş əldə olunur, yeni əlaqələr formalaşmasına səbəb olur.

İnformasiya təhlükəzsizliyi təmin olunması üçün hüquqi baza yaradılmalıdır. Bu məsələ ayrı-ayrı ölkələr kontekstində deyil, beynəlxalq qlobal informasiya təhlükəsizliyi kontekstində nəzərdən keçirilməlidir. AMEA İnformasiya Texnologiyaları İnstitutunun direktoru Rasim Əliquliyev çıxışlarının birində bu barədə fikrini belə izah etmişdir: "Kompüterləşmə prosesi elə səviyyəyə çatıb ki, bu məkanda müxtəlif təhlükələrlə - virus, spam növləri və digər təhlükələrlə üzləşmək mümkündür. Ona görə də Azərbaycanda bu sahədə təhlükəsizlik sisteminin yaradılması vacibdir. İnformasiya sahəsi insan təhlükəsizliyinin əsas faktorlarından birinə çevrilib. Bunun təmin olunması üçün kompleks tədbirlər görmək lazımdır. İlk növbədə bu sahədə beynəlxalq hüquqi baza formalaşdırılmalıdır. Çünki insanlara informasiya azadlığı verilib, lakin informasiya təhlükəsizliyi təmin olunmur. İnternetin hüquqi bazası da yaradılmalıdır. İnternet özünütənzimləmə mexanizmlərinə malik olmalıdır və bu, hansısa ölkənin qanunvericiliyi çərçivəsində deyil, beynəlxalq hüquq əsasında olmalıdır"[2].

Nəticə. Yuxarıda qeyd etdiklərimizdən bir daha aydın olur ki, hər bir ölkənin təhlükəsizliyinin təminatı ilk növbədə təqdim etdiyi informasiyasından başlanır. Bu səbəbdəndir ki, artıq dünyada 1988-ci ildən etibarən 30 noyabr – Beynəlxalq İnformasiya Təhlükəsizliyi Günü kimi qeyd olunur. Bu günün qeyd olunmasında məqsəd qorunub saxlanılan informasiyanın təhlükəsizliyinin təmini, bu sahədə mövcud olan müxtəlif problemlərin həllinin əhəmiyyətini, istifadəçilərin, proqram vasitələri istehsalçılarının, o cümlədən ictimaiyyətin diqqətinə çatdırmaqdır. Çox sevindirici haldır ki, artıq respubikamızda da informasiya təhlükəsizliyinin təmin edilməsinin formalaşdırılması məqsədi ilə "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Elektron sənəd və elektron imza haqqında", "İnformasiya əldə etmək haqqında", "Telekommunikasiya haqqında" və s. qanunlar qəbul edilmişdir.

Ədəbiyyat

1. Azərbaycan Respubikasının Milli Təhlükəsizlik Konsepsiyası URL: https://e-qanun.az/framework/13373
2. Əliquliyev. R. Azərbaycanda Milli İnformasiya Təhlükəsizliyi Sistemi formalaşdırılır URL: https://sia.az/az/news/economy/81684.html
3. Xələfov, A.A., Kitabxanaların kompüterləşdirilməsinin əsasları.Dərslik. İkinci nəşr, əlavə və dəyişikliklərlə. /A.A. Xələfov, A.İ. Qurbanov- Bakı: Bakı Universiteti nəşriyyatı, -2016,- 328 s.
4. Kazımi P. F. İnformasiya mühəndisliyi.-Bakı., Bakı Universiteti, 2011.-235 s.
5. Галатенко В.А. Основы информационной безопасности, Москва, 2004. – 264 с.
6. Свергунова, Н.М. Информационная безопасность библиотек URL: https://library.oreluniver.ru/docs/publ_sotr/Informacionnay%20bezopasnosti.pdf

DOI:10.30546/gdu.4.2024

ТЕОРЕТИЧЕСКИЕ ВОПРОСЫ ИНФОРМАЦИОННОЙ БЕЗОПАСНОСТИ В БИБЛИОТЕКАХ

Мамедова Севда Исрафил кызы

Резюме

В статье рассматривается проблема создания информационной безопасности в библиотечном деятельности описывается понятие информационной безопасности. В тоже время определены некоторые вопросы обеспечения информационной безопасности. В условиях информационного общества электронные библиотеки, выполняющие эту функцию, не могут предоставлять потребителям надежные информационные услуги без обеспечения безопасности электронных информационных ресурсов.

THEORETICAL ISSUES OF INFORMATION SECURITY IN LIBRARIES

Mammadova Sevda Israfil

Summary

Creation of information security problems, conception of information security in libraries and at the same time measures of information protection are investigated in this article. Currently, of the information society, it is impossible for electronic libraries, which perform this function, to provide reliable information services to consumers without ensuring the security of electronic information resources.

Rəyçi: tarix üzrə fəlsəfə doktoru S.Məmmədova
BDU-nun Kitabxanaşünaslıq kafedrasının 10.12.2024 cü il iclasından
Daxil olma tarixi 10 dekabr 2024-cü il